**Azərbaycan xalqının milli qurtuluş gününün elan edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLIKASININ QANUNU

Azərbaycan xalqının milli qurtuluş gününün elan edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının Əmək Qanunları Məcəlləsinin (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1971-ci il, 23, maddə 190; 1973-cü il, 17—18, maddə 158, 24, maddə 216; 1975-ci il, 7, maddə 52, 15, maddə 125; 1977-ci il, 5—6, maddə 34, 13, maddə 91; 1978-ci il, 9, maddə 77, 14, maddə 139; 1980-ci il, 1—2, maddə 3, 6, maddə 83, 19, maddə 191, 21, maddə 223; 1982-ci il, 24, maddə 288; 1983-cü il, 11—12, maddə 111, 23, maddə 215; 1984-cü il, 1—2, maddə 13; 1985-ci il, 12, maddə 143; 1986-cı il, 12, maddə 72, 13, maddə 90; 1987-ci il, 6, maddə 47, 19, maddə 179, 21, maddə 215; 1988-ci il, 5—6, maddə 31, 8, maddə 59, 11—12, maddə 114; 1990-cı il, 13—14, maddə 172; 1991-ci il, 2, maddə 5, 3, maddə 47, 5, maddə 80, 9—10, maddə 151, 21—22, maddə 373; 1992-ci il, 3, maddə 42, 14, maddə 561, 19, maddə 846, 21, maddə 924, habelə 1996-cı il, 14-IQD, 161-IQD, 222-IQD; 1997-ci il, 279-IQD, 280-IQD və 281-IQD Azərbaycan Respublikasının qanunları) 66-cı maddəsinin birinci hissəsinə və «Azərbaycan Respublikasının bayramları haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, 11, maddə 885) 1-ci bəndinə «28 May — Respublika günü» ifadəsindən sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

«15 iyun — Azərbaycan xalqının milli qurtuluş günü».

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 27 iyun 1997-ci il
362-IQD